

“Azərbaycan xalqının özünü, öz dövlətini qoruya bilən əsgərləri, zabitləri, ordusu var”.

# AZƏRBAYCAN ORDUSU

AZƏRBAYCAN RESPUBLİKASI MÜDAFİƏ NAZİRLİYİNİN ORQANI

Qəzet 1992-ci il fevralın 11-dən çıxır 11 iyun 2022-ci il №44 (2655) https://mod.gov.az Qiymıəti 30 qəpik


## Türkiyə Prezidenti: Qardaş Azərbaycanla əməkdaşlıq içindəyik

Türkiyə tarixindən və mədəniyyətindən qaynaqlanan məsuliyyətini yerinə yetirir. Qarabağda və işğal altındakı digər Azərbaycan torpaqlarında 2020-ci ilin sonlarında yaşanan hadisələr zamanı qardaşlarımızın yanında yer aldıq. Erməni tərəfinin təxribatları nəticəsində başlayan 44 günlük bir mübarizənin sonunda Azərbaycanın Zəfəri ilə nəticələnən Qələbə bölgədə 30 ildir davam edən işğala son qoydu.

AZƏRTAC xəbər verir ki, bu fikirləri Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan ölkəsində keçirilən "Efes-2022" çoxmillətli hərbi təlimlərin İzmir bölgəsində təşkil olunan "Yüksək səviyyəli müşahidəçi günü"nə aid sonuncu mərhələdə çıxışında ifadə edib.

Türkiyənin Azərbaycana "Bir millət, iki dövlət" anlayışı ilə dəstəyini davam etdirdiyini xatırladan dövlət başçısı deyib ki, Azərbaycan Ordusunun modernləşməsi, təhsil, mina axtarışı və zərərsizləşdirilməsi məsələlərində də qardaşlarımızla yaxın əməkdaşlıq içindəyik.

Yunanıstanın Egey dənizindəki adalarda beynəlxalq hüquqa zidd olaraq sürətlə silahlanmasına kəskin ifadələrlə bir daha etirazını ifadə edən Türkiyə dövlətinin başçısı gündəlikdə yer alan digər siyasi məsələlərə, o cümlədən terrorla mübarizədə ölkəsinin dəyişməz mövqeyindən və dünyadakı ikili standartlardan danışıb.

## Azərbaycan Ordusunda hərbi topoqrafiyanın rolu danılmazdır



Topoqrafiya geodeziya elminin bir hissəsi olub (yunan dilindən tərcüməsi "topo" - ərazi, "qrafo" - təsvir etmək), ərazinin təsviri deməkdir. Hərbi termin kimi "ərazi" döyüşün aparılması və ya döyüş tapşırığının yerinə yetirilməsi planlaşdırılan sahə nəzərdə tutulur. Döyüşün aparılmasına, təşkilinə, hücum və müdafiədə qoşunların tərtiblənməsinə, döyüş texnikalarının tətbiqinə təsir göstərən amillərin mütləq öyrənilməsi vacib şərtlərdir ki, hərbi topoqrafiya ixtisasında qeyd olunan məsələlər dərindən izah olunur. Bu sahənin dünyanın istənilən ordusunda xüsusi yeri var və bu mövzunu dərindən mənimsəmək hərbi fəaliyyətin düzgün təşkilində mühüm əhəmiyyət kəsb edir.

Belə ki, hərbi taktikanın mühüm hissəsi olan hərbi topoqrafiyada qazanılmış nəzəri biliklər, praktiki vərdişlər komandir və şəxsi heyətin döyüş fəaliyyətində böyük rola malikdir. Hər bir qoşun növü ilə sıx əlaqəli olan bu sahənin tarixinə nəzər salsaq görərik ki, dünya tarixində baş verən müharibələrin gedişatının, müqəddəratının kökü məhz bu elmlə birbaşa və yaxud bilavasitə əlaqəlidir. Real döyüş şəraitində komandirin ərazini dərindən öyrənməsi, günün müxtəlif vaxtlarında hərəkət etmə, səmtləmə bacarığı və digər zəruri bacarıqlar sayəsində uğur qazanması mümkündür. Əlavə olaraq döyüşün tərkib hissələrindən olan hərbi texnikaların və bölmələrin irəliləməsi zamanı ərazinin keçilmə imkanının mütləq qiymətləndirilməsi, onun qoruyucu xüsusiyyətləri (qoşunların ərazidə səpələnməsi, maskalanma tədbirləri və s.), səmtlənmə və müşahidə şəraiti də hərbi topoqrafiya elminin həyati əhəmiyyət kəsb edən mövzulardan ibarət olduğunu təsdiq edir.

Hərbi topoqrafiyanın vacibliyi və əhəmiyyətini nəzərə alaraq "N" hərbi hissəsində zabit Qədir Həsənovdan bu ixtisas haqqında zəruri məlumatlar aldıq. "Hərbi topoqrafiya elmində komandir heyəti ərazinin taktiki xüsusiyyətləri və təsnifatı barədə, ərazidə sadə üsullarla bucaq və məsafələrin təyini mövzusunda məlumatlar əldə edir. Ərazi döyüş tapşırıqlarının icra edildiyi yer olaraq nəzərdə tutulur. Bunun üçün də ərazinin taktiki xüsusiyyətlərinə, relyefinə, mövsümi dəyişikliklərinə xüsusi diqqət yetirmək lazımdır. Topogeodeziya təminatı dedikdə verilən tapşırıqların uğurla yerinə yetirilməsi üçün qərargahlara, qoşunlara zəruri məlumatların hazırlanması və göndərilməsi ilə bağlı tədbirlər kompleksi başa düşülür. Döyüşə hazırolma və döyüşün aparılması üçün ərazinin öyrənilməsində, qiymətləndirilməsində, həmçinin silah və texnikadan səmərəli istifadə edilməsində bu təminat növünün hazırladığı məlumatlar mühüm əhəmiyyət kəsb edir. Məsələn, artilleriya qurğularından atışlar zamanı hədəf koordinatlarının təyin edilməsi dəqiqliyinin artırılması və səmərəliliyin yüksəldilməsi, alçaqdan aparılan aviasiya uçuşları zamanı ekipajlara yer səthinin relyefi və ərazidəki tikililərin nisbi hündürlükləri haqqında daha dəqiq məlumatların verilməsi topogeodeziya təminatının əsas tapşırıqlarındandır. Dövrün müasir tələbləri nəzərə alınaraq, məlumatlar dəqiq və etibarlı olmalıdır. Bu gün Müzəffər Ali Baş Komandanın orduya göstərdiyi yüksək diqqət və qayğı nəticəsində bizim də təchizatımız modern tələblər səviyyəsində qurulur", - deyə zabit bildirdi.

Zabit İlqar Rəhimov Hərbi Topoqrafiya Xidmətində görülən işlərlə bağlı məlumat verdi. "Hərbi Topoqrafiya Xidməti Azərbaycan Ordusunda topogeodeziya təminatından irəli gələn tapşırıqların həyata keçirilməsinə cavabdehdir. Azərbaycan Ordusunun sifarişlər əsasında topoqrafik xəritələrlə və kartoqrafik təsviredici materiallarla təmin edilməsi, çöl topoqrafiya işlərinin həyata keçirilməsi, Azərbaycan Ordusunun hissə və müəssisələrinin topogeodeziya təminatı ilə bağlı vəziyyətini daim nəzarətdə saxlaması, rəhbəredici sənədlərin, təlimat və ədəbiyyatların tərtib olunması Hərbi Topoqrafiya xidməti tərəfindən həyata keçirilir. Azərbaycan Ordusunda bu sahə üzrə ixtisaslaşmış zabitlərlə yarışların, təlim metodiki toplanışların keçirilməsi, inkişaf etdirilməsi və müasir tələblər çərçivəsində saxlanılması üzrə tədbirlər görülür".

**(Ardı 5-ci səhifədə)**

## Azərbaycanın iştirakı ilə Türkiyədə keçirilən “Efes-2022” təlimləri başa çatıb



Türkiyədə keçirilən "Efes-2022" çoxmillətli hərbi təlimlər İzmir bölgəsində təşkil olunan "Yüksək səviyyəli müşahidəçi günü"nə aid iyunun 8-də və 9-da təşkil olunan mərhələlərlə başa çatıb.

Azərbaycanın müdafiə naziri general-polkovnik Zakir Həsənov və Dövlət Sərhəd Xidmətinin rəisi general-polkovnik Elçin Quliyevin rəhbərlik etdikləri nümayəndə heyətinin də izlədiyi təlimlərin iyunun 9-da keçirilən sonuncu mərhələsi Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın iştirakı və çıxışı ilə yekunlaşıb.

Bağlanış mərasimində əvvəlcə Türkiyənin milli müdafiə naziri Hulusi Akar Türkiyənin ən böyük hərbi təlimlərindən olan "Efes-2022"nin məqsəd və hədəfləri barədə müfəssəl məlumat verib.

Sonra Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan nitq söyləyib.

Türkiyə Silahlı Qüvvələrinin "Mehtaran" qrupunun çıxışından sonra türk ulduzları nümunəvi uçuşlar həyata keçiriblər.



Həmçinin paraşütçülər təlimlərdə iştirak edən ölkələrin dövlət bayraqlarını havada nümayiş etdiriblər.

"Efes-2022" təlimlərinin mətbuat mərkəzindən verilən məlumata görə bir ay davam edən təlimlərdə bütün tapşırıqlar qüsursuz yerinə yetirilib.

**AZƏRTAC-ın materialları əsasında**

# Azərbaycanın müdafiə naziri Türkiyənin milli müdafiə naziri ilə görüşüb




Türkiyə Respublikasının milli müdafiə naziri Hulusi Akarın dəvəti ilə "Efes-2022" beynəlxalq təlimini izləmək üçün qardaş ölkədə işgüzar səfərdə olan Azərbaycan Respublikasının müdafiə naziri general-polkovnik Zakir Həsənov iyunun 8-də İzmir şəhərində türkiyəli həmkarı ilə görüşüb.

Müdafiə Nazirliyi Mətbuat Xidməti xəbər verir ki, hərbi, hərbi-texniki, hərbi-təhsil və digər sahələrdə əməkdaşlığın inkişaf etdirilməsi məsələləri müzakirə edilib, keçirilən birgə təlimlərdə hərbçilərimizin qazandığı təcrübənin əhəmiyyəti qeyd olunub.

# Azərbaycan və Qırğızıstan müdafiə nazirlərinin ikitərəfli görüşü keçirilib



İyunun 8-də İzmir şəhərində Azərbaycan Respublikasının müdafiə naziri general-polkovnik Zakir Həsənov və Qırğızıstan Respublikasının müdafiə naziri general-leytenant Baktıbek Bekbolotov arasında ikitərəfli formatda görüş keçirilib.

Müdafiə Nazirliyi Mətbuat Xidməti xəbər verir ki, görüşdə ölkələrimiz arasında hərbi, hərbi-təhsil və qarşılıqlı əməkdaşlığın müxtəlif sahələri, eləcə də maraq doğuran digər məsələlər barədə ətraflı fikir mübadiləsi aparılıb.

# Yüksək səviyyəli qonaqlar "Efes-2022" beynəlxalq təlimini izləyiblər





Azərbaycan Respublikasının müdafiə naziri general-polkovnik Zakir Həsənov yüksək səviyyəli qonaqlarla birgə "Efes-2022" çoxmillətli təlimini izləyib.

Müdafiə Nazirliyi Mətbuat Xidməti xəbər verir ki, təlimin gecə saatlarında keçirilən mərhələsində aşkar edilən dəniz minasının zərərsizləşdirilməsi və terrorçular tərəfindən zəbt edilən gəminin azad olunması tapşırıqları yerinə yetirilib.

Qeyd edək ki, təlimə Əlahiddə Ümumqoşun Ordudan və Hərbi Dəniz Qüvvələrindən bir qrup hərbi qulluqçumuz da cəlb edilib.

# Türkiyə Müdafiə Sənayesi Nazirliyinin təşkil etdiyi sərgi ziyarət edilib

"Efes-2022" çoxmillətli təlimini izləmək üçün Türkiyədə işgüzar səfərdə olan Azərbaycan Respublikasının müdafiə naziri general-polkovnik Zakir Həsənovun rəhbərlik etdiyi nümayəndə heyəti Türkiyə Müdafiə Sənayesi Nazirliyinin təşkil etdiyi sərgini ziyarət edib.



Müdafiə Nazirliyi Mətbuat Xidməti xəbər verir ki, sərgi əsnasında general-polkovnik Zakir Həsənov Pakistan İslam Respublikasının Birləşmiş Qərargah Rəisləri Komitəsinin sədri general Nadim Raza ilə görüşüb.

Səmimi görüşdə Azərbaycan ilə Pakistan arasında hərbi əməkdaşlıqdan məmnunluq ifadə olunub, gələcək perspektivlər müzakirə edilib.

Daha sonra qonaqlar burada sərgilənən hərbi təyinatlı müasir silah və döyüş texnikası nümunələri ilə tanış olublar.



# "Efes-2022" çoxmillətli təlimində yüksək peşəkarlıq nümayiş etdirilib





*Müdafiə Nazirliyi Mətbuat Xidməti xəbər verir ki, iyunun 9-da Azərbaycan Respublikasının müdafiə naziri general-polkovnik Zakir Həsənov "Efes-2022" çoxmillətli təliminin sonuncu günündə icra olunan tapşırıqları izləyib.*

Yüksək səviyyəli qonaqlar qismində təlimi izləmək üçün Türkiyə Respublikasının Prezidenti cənab Rəcəb Tayyib Ərdoğan poliqona gəlib.

Təlim iştirakçıları snayper atışları, mühüm əhəmiyyətə malik hədəfin ələ keçirilməsi, eləcə də dəniz piyadalarının sahil obyektinə basqın tapşırıqlarını yerinə yetiriblər.

Əlahiddə Ümumqoşun Ordudan və Hərbi Dəniz Qüvvələrindən bir qrup hərbi qulluqçumuzun da cəlb edildiyi beynəlxalq təlimdə iştirakçılar yüksək peşəkarlıq nümayiş etdiriblər.

# Azərbaycan Ordusunda döyüş atışlı intensiv taktiki təlimlər keçirilir







*Müdafiə Nazirliyinin rəhbər heyətinin iştirakı ilə Azərbaycan Ordusunun ümumqoşun poliqonlarında müxtəlif qoşun növlərinin döyüş atışlı intensiv taktiki təlimləri keçirilir.*

Müdafiə Nazirliyi Mətbuat Xidməti xəbər verir ki, təlimlərin keçirilməsində əsas məqsəd bölmələrin döyüş qabiliyyətinin artırılması, şəxsi heyətin praktiki vərdişlərinin inkişaf etdirilməsi ilə peşəkarlıq səviyyəsinin daha da yüksəldilməsi, qoşunların idarəetmə orqanlarının qarşılıqlı fəaliyyətinin təkmilləşdirilməsidir.

Quru Qoşunları, Hərbi Hava Qüvvələri, Hərbi Dəniz Qüvvələri və Xüsusi Təyinatlı Qüvvələrin bölmələrinin cəlb edilməsi ilə keçirilən təlimlərin əsas xüsusiyyəti Vətən müharibəsi və digər müasir müharibələrin təcrübəsinə əsaslanan yeni taktiki hərəkətlərin yerinə yetirilməsi, o cümlədən şərti düşmənin uzaqdan aşkar olunması sisteminin geniş tətbiqi ilə onun daha effektiv məhv edilməsidir.

Təlimlərin gedişi barədə komandirlərin və qərargah zabitlərinin məruzələri dinlənilir, kəşfiyyat məlumatları əsasında düşmənin vəziyyəti və ərazinin xüsusiyyətləri öyrənilir, silahlanmaya yeni daxil edilən cihaz və vasitələrin tətbiqi ilə bölmələrin qarşılıqlı fəaliyyəti təşkil olunur.

Təlimlərin ssenarisinə əsasən, aşkar olunan şərti düşmən hədəfləri müxtəlif aviasiya vasitələri, motoatıcı, artilleriya və tank bölmələri tərəfindən qarşılıqlı əlaqədə məhv edilir.





# XİN: Ermənistanın təxribatçı addımı beynəlxalq vasitəçilərin səylərinə kölgə salır

*İyunun 8-də Ermənistanın Baş prokuroru Azərbaycan Respublikasının ərazisinə qanunsuz səfər edərək, qondarma qurumun "nümayəndəsi" ilə görüşüb.*

AZƏRTAC xəbər verir ki, Azərbaycan Xarici İşlər Nazirliyinin Mətbuat Xidməti idarəsi Ermənistanın Baş prokurorunun ərazilərimizə qanunsuz səfərini şərh edib.

"Azərbaycan Respublikasının suverenliyi, ərazi bütövlüyü və beynəlxalq səviyyədə tanınmış sərhədlərinin toxunulmazlığına qarşı atılan bu addım beynəlxalq hüququn fundamental norma və prinsiplərini pozmaqla yanaşı, postmünaqişə mərhələsində Ermənistan və Azərbaycan arasında münasibətlərinin normallaşmasına, o cümlədən bölgədə sülh və təhlükəsizliyin bərqərar olması istiqamətində göstərilən səylərə ciddi xələl gətirir.

Ermənistan tərəfinin bu məsuliyyətsiz və təxribatçı addımı, bu ölkənin normallaşma prosesində səmimi olmadığını, o cümlədən beynəlxalq vasitəçilərin səylərinə kölgə saldığını bir daha nümayiş etdirir.

Bu təxribatçı addımın bütün məsuliyyəti Ermənistan tərəfinin üzərindədir", - deyə XİN-in şərhində bildirilib.

# Pakistanın Milli Müdafiə Universitetinin nümayəndə heyəti ilə görüş keçirilib





*İyunun 7-də Milli Müdafiə Universitetinin rektoru vəzifəsini icra edən, professor general-leytenant Heydər Piriyev ölkəmizdə səfərdə olan Pakistan İslam Respublikası Milli Müdafiə Universitetinin rəhbər heyəti ilə "Milli təhlükəsizlik və müharibə kursu"nun dinləyicilərini qəbul edib.*

Müdafiə Nazirliyi Mətbuat Xidməti xəbər verir ki, qonaqlar əvvəlcə Şəhidlər xiyabanında ölkəmizin müstəqilliyi, ərazi bütövlüyü uğrunda şəhid olmuş vətəndaşlarımızın məzarlarını ziyarət edərək gül dəstələri düzüblər.

Görüşdə ölkələrimiz arasında əlaqələrin yüksələn xətlə inkişaf etdiyi qeyd olunub, hərbi təhsil sahəsində əməkdaşlığın inkişaf perspektivləri, eləcə də qarşılıqlı maraq doğuran digər məsələlər müzakirə edilib.

Nümayəndə heyəti və dinləyicilərə Azərbaycanda hərbi təhsil sistemi haqqında geniş brifinq təqdim olunub.

Sonda xatirə şəkli çəkilib.

# Psixoloqlar ilə təlim-metodiki toplantı keçirilib

*Müdafiə naziri general-polkovnik Zakir Həsənovun təsdiq etdiyi plana əsasən, Azərbaycan Ordusunun Təlim və Tədris Mərkəzində birlik, birləşmə, xüsusi təyinatlı təhsil müəssisələrinin psixoloqları ilə təlim-metodiki toplantı keçirilib.*



Müdafiə Nazirliyi Mətbuat Xidməti xəbər verir ki, əvvəlcə Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin və ölkəmizin ərazi bütövlüyü uğrunda şəhid olanların xatirəsi bir dəqiqəlik sükutla yad edilib, dövlət himni səsləndirilib.

Şəxsi Heyət Baş İdarəsinin İdeoloji İş və Mənəvi-Psixoloji Təminat İdarəsinin rəisi vəzifəsini icra edən general-mayor Bəkir Orucov 2022-ci ilin cari dövrü ərzində psixoloji iş, hərbi intizamın möhkəmləndirilməsi və digər sahələrdə görülən işlər, eləcə də bu istiqamətdə qarşıda duran vəzifələr barədə ətraflı məlumat verib.

General-mayor B.Orucov Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin rəhbərliyi ilə rəşadətli Azərbaycan Ordusunun şanlı Qələbəsi ilə başa çatan Vətən müharibəsindən də danışaraq, bu Zəfərin qazanılmasında şəxsi heyətin hərbi vətənpərvərlik tərbiyəsinin, mənəvi-psixoloji hazırlığının və hərbi intizamının yüksək olmasının böyük rolu olduğunu qeyd edib.

Toplantıda çıxış edənlər Azərbaycan Ordusunda nizam-intizamın yüksəldilməsi və möhkəmləndirilməsi sahəsində həyata keçirilən islahatlardan, həmçinin bu sahədə psixoloqların üzərinə düşən vəzifələrdən danışıblar. Şəxsi heyətin döyüş ruhunun, vətənpərvərlik hissinin, qələbə əzminin yüksəldilməsi məqsədilə milli mənəvi dəyərlərin aşılanmasının, tarixi şəxsiyyətlərin, sərkərdələrin keçdiyi döyüş yolunun təbliğinin əhəmiyyəti diqqətə çatdırılıb.

Sonra Müdafiə Nazirliyinin müxtəlif idarə və hərbi hissələrinin zabitləri çıxış edərək mənəvi-psixoloji təminatın yüksəldilməsi istiqamətində görülən işlər, ordunun döyüş qabiliyyətinə təsir edən bir çox mövzular ətrafında fikir və mülahizələrini bölüşüblər.

# Azərbaycan və Almaniya müdafiə nazirlikləri arasında ikitərəfli danışıqlar keçirilib




Azərbaycan Respublikasının Müdafiə Nazirliyi və Almaniya Federativ Respublikasının Federal Müdafiə Nazirliyi arasında 2022-ci il üçün ikitərəfli hərbi əməkdaşlıq proqramına uyğun olaraq, hər iki ölkənin müdafiə nazirlikləri arasında 10-cu Qərargah danışıqları keçirilib.

Müdafiə Nazirliyi Mətbuat Xidməti xəbər verir ki, görüşdə regional və beynəlxalq təhlükəsizlik məsələləri, o cümlədən əməkdaşlığın cari vəziyyəti və mümkün perspektivləri müzakirə olunub.

# Komando bölmələrində taktiki-xüsusi təlimlər davam edir



Müdafiə Nazirliyi Mətbuat Xidməti xəbər verir ki, Quru Qoşunlarının döyüş hazırlığı planına əsasən, Əməliyyat (Komando) hərbi hissələrinin şəxsi heyəti ilə taktiki-xüsusi təlimlər keçirilib.

Əldə edilən kəşfiyyat məlumatına əsasən, şərti düşmənin diversiya qrupunun təxribat törədəcəyi ehtimal olunan ərazi müəyyənləşdirilib.

Komandolar əməliyyat rayonunun dərinliyinə sızaraq müvəqqəti sığınacaqların mühasirəyə alınması və şərti düşmənin zərərsizləşdirilməsi tapşırıqlarını müvəffəqiyyətlə yerinə yetiriblər.

Keçirilən təlimlərin əsas məqsədi şəxsi heyətin dağlıq ərazilərdə taktiki vərdişlərinin təkmilləşdirilməsi, eləcə də Əməliyyat (Komando) bölmələrinin döyüş qabiliyyətinin daha da yüksəldilməsidir.

# Ulu Öndərin əsasını qoyduğu siyasət bizi Böyük Qələbəyə apardı

1973-cü ildə Heydər Əliyev Cəmşid Naxçıvanski adına internat məktəbi ziyarət edəndə mən məktəbin bayraqdarı idim.

Heydər Əliyev raportu qəbul edib rəhbərliklə görüşəndən sonra şagirdlərə tərəf gəldi. Mənə yaxınlaşanda özümü təqdim etdim. Haradan olduğumu soruşdu, valideynlərim haqqında və ailəmiz barədə maraqlandı. Sonra təbəssümlə "Sən general olmaq istəyirsən?" sualını verdi. Mən "Bəli, olmaq istəyirəm", - deyə cavab verdim. O, yanağıma ata nəvazişi ilə toxunub sağ əlini çiynimə qoydu və sıranın dərinliyinə tərəf baxdı. Mən o baxışları o zaman gənc yaşımda dərk edə bilmirdim, ancaq o məqamları mən sonradan, ələlxüsus da həyatımın çətin anlarında yada salırdım və salıram.

Bu məktəb, bu görüş, bu həyat mənim gələcək taleyim idi. Bu tale gələcəkdə Azərbaycan Respublikasının Silahlı Qüvvələrinin Ali Baş Komandanı, Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin fərmanı ilə iki dəfə "Azərbaycan Bayrağı" ordeni ilə təltif olunmağımı və bu ordenləri Heydər Əliyevin özünün təqdim etməsi qismət idi. Bu, sonralar olacaqdı.

Heydər Əliyev xalqın təkidli tələbi ilə Azərbaycana rəhbərlik etmək üçün Bakıya gəldi.

1993-cü ilin oktyabrında Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev cəbhədə ağır vəziyyətlə əlaqədar xalqa müraciət etdi. Bu müraciət böyük əhval-ruhiyyə ilə qarşılandı. Mən o zaman təlim mərkəzində cəbhəyə ehtiyat taborların hazırlığı ilə məşğul idim və bu müraciət ilə bağlı gələn heyətin döyüş əzminin yüksəlməsinin şahidi oldum. Onlar əvvəlki heyətlərdən seçilirdilər və böyük inamla döyüş hazırlığına yiyələnirdilər.



Noyabrın ilk günlərindən mən Ali Baş Komandanın sərəncamı ilə hərbi hissə komandiri vəzifəsinə təyin edildim.

1993-cü il dekabr ayının 23-ü idi. Biz döyüş hazırlığının bölük və taborlara təlimləri keçirirdik. Məlumat gəldi ki, Əbədiyaşar Komandan Heydər Əliyev ehtiyat hərbi hissələrinin döyüş hazırlığına baxmaq və şəxsi heyətlə görüşmək üçün bizim hərbi hissəyə gələcək. Mən ümummilli lider Heydər Əliyevi qarşıladım və təlimin gedişi haqqında raport verdim. Ulu Öndər komanda məntəqəsinə qalxaraq təlimin gedişini izlədi. Təlimlərin gedişindən razı qaldığını bildirərək mənim haqqımda maraqlandı və biləndə ki, mən Cəmşid Naxçıvanski adına məktəbin ilk məzunlarındanam, mənə diqqətlə baxdı. Bu baxış mənə doğma, tanış idi. Bu baxış iyirmi il əvvəlin baxışı idi. O baxış arzu idi, bu baxış arzuların həyata keçməsi idi. Sonra o, gözlənilmədən - çünki proqramda bu yox idi - əsgərlərin yerləşdiyi çadırlara getmək istədi. Orada onların şəraiti və yeməkləri ilə maraqlandı, artıq əsgəri təminatda da müsbət dəyişikliklər var idi. Sonra hərbi hissənin şəxsi heyəti ilə görüşdü, özünəməxsus mənaca yüksək döyüş ruhuna səbəb olan sözlərlə çıxış etdi və gələcək döyüşlərdə şəxsi heyətə uğurlar arzuladı, xeyir-dua verdi. Ali Baş Komandanı yola salanda o mənə "inanıram ki, siz yaxşı komandir olacaqsınız" dedi.

Dekabrın sonunda döyüş tapşırığını alaraq biz Füzuli istiqamətində hücum əməliyyatına hazırlaşırdıq. Şəxsi heyətdə böyük ruh yüksəkliyi hiss olunurdu. Tankların üzərində "Əliyev uğrunda!" sözləri yazılmışdı. Bunu şəxsi heyətin özü etmişdi. Bu ürəkdən gələn hisslər idi, Ümummilli Liderə olan böyük məhəbbət və inam idi.

Ali Baş Komandan Heydər Əliyevin sərkərdəliyi ilə Horadiz əməliyyatı qələbə ilə başa çatdı. Bu qələbə ordunun şəxsi heyətinin qələbə ruhunu daha da artırdı.

1994-cü ilin oktyabr ayının əvvəlində birinci OMON (Xüsusi Təyinatlı Polis Dəstəsi) hadisələri Bakıda Respublika Prokurorluğunun binasını ələ keçirməklə başladı. O zaman mən IV kurs kursantları ilə Respublika Prokurorluğunu əhatələdik və qanunsuz silahlı şəxslərin şəhərin mərkəzinə irəliləməsinin qarşısını almaq üçün hazırlıq tədbirləri apardıq. Hər şey hazır idi və Ali Baş Komandan Heydər Əliyevdən əmr gözləyirdik. O, yenə də özünəməxsus aliliyi ilə qan tökülməsinə imkan vermədi və oradan OMON-çuları öz bazalarına - Səkkizinci kilometr qəsəbəsinə buraxılmasına əmr verdi. Ondan sonra qəsəbə ətrafında bizə ayrılan postları tutduq. Sonra yaranmış vəziyyətdən çıxış yolunu yenə də müdrik, səbirli, liderliyə məxsus xüsusiyyətlərə malik Prezidentimiz xalqa müraciət edərək, xalqın gücünü və özünə olan inamı yolunu azanlara göstərərək qan tökülmədən həll etdi.

Mənim tabeçiliyimdə olan kursantların əksəriyyəti Cəmşid Naxçıvanski adına məktəbin məzunları idi. Hamı bir nəfər kimi hər zaman Ali Baş Komandanı, dövləti, dövlətçiliyi qorumağa hazır idi. Mən bu hadisələr zamanı Müdafiə Nazirliyinə çağırıldım və konkret tapşırıq alıb kursant və zabit heyəti ilə verilən tapşırığı yerinə yetirmək üçün Səkkizinci kilometr qəsəbəsinə yollandım. Bütün hadisələr onu göstərirdi ki, burada qiyamçı tərəf silahdan istifadə edərək öz niyyətlərinə çatmaq istəyəcəklər. O zaman yenə də əsas yerlərdə komandirlik etmək biz Naxçıvanskilərin üzərinə düşdü. Orada Azərbaycanın dövlətçiliyini qorumaqda iştirak edən şəxsi heyət yenə də öz Ali Baş Komandanı Heydər Əliyevə sadiqliyini, gücünü göstərdi və bir daha xarici və daxili düşmənlərə sübut etdi ki, Azərbaycan Silahlı Qüvvələri öz dövlətini, xalqını və prezidentini qorumağa qadirdir.

Mən o hadisələrdə iştirakıma və xüsusi xidmətlərimə görə ikinci dəfə "Azərbaycan Bayrağı" ordeni ilə təltif olundum.

Bu, mənə tarixi şəxsiyyət, Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan Heydər Əliyev tərəfindən verilən qiymətdir. Kim bilirdi ki, Heydər Əliyevin yaratdığı Cəmşid Naxçıvanski adına hərbi məktəbin bayraqdarı 20-25 ildən sonra öz ana torpağını, Azərbaycan xalqını, dövlətini qoruyaraq, öz prezidentinə sadiqliyini göstərərək, onun fərmanları ilə iki dəfə "Azərbaycan Bayrağı" ordeni ilə təltif olunacaq.

Ulu Öndərin əsasını qoyduğu siyasətin nəticəsidir ki, Ali Baş Komandanın rəhbərliyi altında rəşadətli ordumuz Vətən müharibəsində xalqımıza Böyük Qələbəni bəxş etdi.

**Ehtiyatda olan polkovnik**
**Şair RAMALDANOV**

# Azərbaycan Ordusunda hərbi topoqrafiyanın rolu danılmazdır

**(Əvvəli 1-ci səhifədə)**

Keçirilən yarışların, görülən işlərin əhəmiyyətindən danışan zabit Fərid Ağayev bu sahənin inkişafının, təminatının yuxarı komandanlığın diqqətində olduğunu bildirdi. "Təsdiq olunmuş illik döyüş hazırlığı planına əsasən, Azərbaycan Ordusunda hərbi topoqraf ixtisaslı zabitlərlə "Ən yaxşı topoqraf" adı uğrunda yarışlar keçirilir. İştirakçılar ərazidə səmtləşmə, mövqe təyin edən cihazlar vasitəsilə dayanma nöqtəsinin koordinatlarının təyini, müasir geodeziya cihazlarının normativə əsasən quraşdırılması, müasir proqramların tətbiqi ilə topogeodeziya təminatı tapşırıqlarının icrası, fiziki hazırlıq və digər elementlər üzrə bacarıqlarını nümayiş etdirirlər. Yarışda ən çox bal toplayan hərbi qulluqçu "Ən yaxşı topoqraf" adını qazanır və komandanlıq tərəfindən mükafatlandırılır".

Fəaliyyətin praktiki hissəsində öyrəndik ki, hərbi topoqrafların ərazidə səmtləşmə, GPS vasitəsilə dayanma nöqtəsinin koordinatlarını təyin etmə, müasir proqram təminatını düzgün istifadə etmə bacarıqları sınaqdan keçirilir. Zabit Zaur Ağayev topoqrafik alətlərlə ərazidə ölçü işlərinin aparılmasından danışdı. "Müdafiə Nazirliyinin birlik, birləşmə, qoşun növlərinin sifarişləri əsasında müasir elektron geodeziya alətlərindən istifadə edərək çöl topoqrafiya işləri həyata keçirilir. Bunun üçün ərazi sxeminin təyinatı önəmli faktordur. Ərazi sxemi - kiçik ərazinin və ya hərəkət marşrutunun böyük miqyasda əl ilə çəkilmiş sadə çertyojudur. Bu sxem bölmə komandirləri tərəfindən topoqrafik xəritə və aerofotoşəkil əsasında, yaxud bilavasitə ərazidə bucaqölçən və naviqasiya alətlərindən istifadə edərək gözəyarı planaalma üsulları ilə tərtib olunur. GPS Yerin süni peyklərindən istifadəyə əsaslanmış və Yer kürəsinin istənilən rayonunda, istənilən zaman anında və hava şəraitində obyektlərin koordinatlarını, yüksəkliyini, hərəkət sürətini və vaxtı təyin etmək imkanına malik, dövrümüzün ən mühüm radionaviqasiya sistemidir. GPS-in koordinatların təyin edilməsində rolu çox böyükdür. Belə ki, piyada qoşunların, maşınların, helikopterlərin, gəmilərin və s. hərəkəti üçün GPS zəruri ehtiyacları ödəmək qabiliyyətindədir. Bu alət vasitəsi ilə elektron kompasın istifadəsi ilə



üfüqün cəhətlərinin təyin edilməsi, daxil olan koordinata görə hədəfin tapılması, sahənin ölçülməsi, yüksəklik və çökəkliyin təyin olunması fəaliyyətləri icra olunur. GPS-də yüzdən çox nöqtənin koordinatlarını yaddaşa yükləmək, hərəkətin sürətini və lazımi nöqtəyə çatmaq vaxtını hesablamaq asanlaşır".

Sonra kapitan Firuz Cəbrayılov xəritələrin elektron və kosmik görüntülər əsasında yoxlanılmasının xüsusi avadanlıqlarla təchiz edilmiş otaqlarda həyata keçirildiyini bildirdi. "Topoqrafik xəritələrdə obyektlərin (sahə, xətt, nöqtə), simvolların, yazıların oxunaqlığı və dəqiqliyi yoxlanılır. O cümlədən yeni kosmik şəkillər əsasında topoqrafik xəritələrin ərazi uyğunluğunun və ərazidə xəritələrin mövqe doğruluğunun yoxlanılması fəaliyyətlərinə də xüsusi diqqət yetirilir".

Firuz Cəbrayılovla birlikdə ərazi maketi və xəritə saxlancı olan otaqlara baş çəkdik. Ərazi maketinin hazırlanması prosesi müasir avadanlıqların tətbiqi ilə aparılırdı. Gizir Cəmil Muradov bildirdi ki, təchizatımızda olan müasir cihazların tətbiqi ilə xəritə üzərində müəyyən olunmuş ərazinin natura (yer) üzərində relyefi və obyektləri nəzərə alınmaqla təyin olunmuş miqyasa görə təsvirini təmin edirik. Cihaz ərazinin görüntüsünü zəruri materialın üzərində əks etdirir, ərazinin horizontalları (yüksəklik, çökəklik və s.) nəzərə alınaraq təsviri formalaşır və müəyyən zəruri fəaliyyətlər yerinə yetirildikdən sonra yekunlaşır. Sifariş əsasında, maket hazır olduqdan sonra Müdafiə Nazirliyinin birliklərinə, birləşmə, qoşun növlərinə göndərilir".

Xəritə saxlancında xidmət aparan baş gizir Teymur Vəliyev söhbətimiz zamanı qeyd etdi ki, buradan Azərbaycan Ordusunun birlik, birləşmə, qoşun növü və müxtəlif hərbi təyinatlı müəssisələrindən daxil olan sifarişlər əsasında topoqrafik xəritələrin şəhər planlarının çeşidlənib hazırlanması və aidiyyəti üzrə göndərilməsi təmin edilir.

Bu gün sevindirici haldır ki, işğaldan azad olunan ərazilərimizin xəritələri yenilənir və tarixi torpaqlarımızda düşmən mövqeləri anlayışı yoxdur.

**Baş leytenant**
**Fuad CƏFƏROV**
**"Azərbaycan Ordusu"**

Vətən Müharibəsi Qəhrəmanlarımız

# Şəhid xatirəsi Vətən qədər müqəddəsdir



*Hər bir şəhid evi, ocağı xalqımızın mənəviyyat dünyasının qibləgahı, and yeri, qürur duyacağı məkanıdır. Əsrlərə söykənən zəngin milli-mənəvi dəyərlərimiz şəhidlərimizin müqəddəs ruhları ilə təzələnir. Şəhid qanı ilə xalqımızın, Vətənimizin, dövlətimizin, ordumuzun şərəf tarixinə yeni səhifələr yazılır. Qeyrəti, ləyaqəti, namusu, xalqımızın milli heysiyyatını canından üstün tutan Vətən oğulları həyatlarını müqəddəs haqq savaşımızda qurban etdilər. Hər bir şəhid ömrü xalqımızın mənəvi dəyərlərininin yaşantısıdır.*

Şəhidliyi ilə xalqımızın mənəvi dəyərlərini, Vətənin, dövlətin, ordunun şərəf tarixini yaşadan oğullardan biri də kəşfiyyatçı polkovnik-leytenant Orxan Nadir oğlu Əkbərovdur. Vətən Müharibəsi Qəhrəmanı Orxan Əkbərov ömrünü çətin, lakin müqəddəs və şərəfli hərb peşəsinə ürəkdən bağlamışdı. Hərb sənətini seçəndə çətinliyi gözə almışdı. Bu çətinlik onu qorxutmadı, əksinə, daha dözümlü, iradəli, güclü, qüvvətli olmağa sövq etdi. O, "Görünmədən görmək, ölmədən dönmək" ixtisasını seçmişdi. Onu güclü, qüvvətli və özünə inamlı edən döyüş və fiziki hazırlığı ilə yanaşı, Qarabağ həsrəti idi. Orxan hələ orta məktəbdə oxuyan vaxtlarda peşəkar boksçu kimi respublikamızda keçirilən rayon birinciliyinin dəfələrlə qalibi olmuşdu. Bütün bu qazandığı nailiyyətlər onun gələcək həyatında lider zabit və bacarıqlı kəşfiyyatçı kimi yetişməsində böyük rol oynamışdı...

Orxan Nadir oğlu Əkbərov 1982-ci il dekabrın 12-də Saatlı rayonunda hüquqşünas ailəsində doğulmuşdu. Mərhum atası Nadir Əkbərov polis zabiti kimi Birinci Qarabağ müharibəsində iştirak etmişdi. Anası Sevil Abdullazadə 45 ildir ki, həkim işləyir. Ailədə üçüncü övlad olan Orxan orta məktəbdə ağlı, zəkası, savadı ilə seçilirdi. O, gələcəkdə hərbçi olmağı qarşısına məqsəd qoymuşdu...

Orxan Əkbərov 2000-ci ildə Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbinə daxil oldu. Təhsil aldığı illərdə nümunəvi, hazırlıqlı kursant kimi müəllimlərinin rəğbətini qazandı. Hərbi məktəbi kəşfiyyat ixtisası üzrə bitirərək leytenant rütbəsində Füzuli rayonunda yerləşən "N" hərbi hissəsində taqım komandiri, sonra isə bölük komandiri vəzifəsində xalqa, Vətənə, dövlətə, orduya ləyaqətlə xidmət etdi. Yüksək mənəvi və şəxsi keyfiyyətləri, intellekti, liderlik bacarığı, nizam-intizamı, vətənpərvərliyi, zəngin təcrübəsi, döyüş tapşırıqlarını uğurla yerinə yetirməsi komandanlıq tərəfindən hər zaman qiymətləndirildi. Orxan hərbçilər arasında peşəkar boks üzrə keçirilən yarışların dəfələrlə qalibi oldu.

Beyləqan və Ağdam rayonlarında yerləşən "N" hərbi hissələrində müxtəlif vaxtlarda kəşfiyyat rəisi vəzifələrində xidmət edən Orxan Əkbərov 2019-cu ildə hərbi hissələrdən birinə komandir təyin olundu. Müxtəlif vaxtlarda düşmənin kəşfiyyat-diversiya qruplarının törətdiyi təxribatların qarşısının alınmasında xüsusi bacarıq göstərdi.



2020-ci il sentyabrın 27-də Ermənistan silahlı birləşmələrinin genişmiqyaslı təxribatlarına qarşı ordumuzun əks-hücum əməliyyatı başlayanda "Hər kəsə şəhidlik zirvəsi qismət olmur, Vətən uğrunda canımdan keçərəm" deyərək irəli atılır. Orxan komandir kimi daim şəxsi heyəti düşünürdü. Döyüşdən əvvəl də, döyüşdə də. O, bacarıqlı komandir kimi hər zaman əsgərini döyüşə hazırlayırdı. Əsgərinə dost, qardaş olan komandir bu ağır sınaq günlərində də onları qorumaq üçün az itkiylə böyük uğur qazanmağı düşünürdü...

Döyüşün ilk günlərində Orxan Əkbərov əsgərlərlə birlikdə kənd Horadiz istiqamətində düşmənin çoxlu sayda xüsusi təyinatlı əsgərinin, silah və texnikasının məhv edilməsində, istehkamlarının darmadağın olunmasında, qəhrəmanlıq, fədakarlıq nümunələri göstərir, ölümün gözünə dik baxır, "Vətən yolunda öldü var, döndü yoxdur", - deyir.

Şuşaya üçrəngli Azərbaycan bayrağını birinci sancmaq arzusunu qəlbində gəzdirən Vətənin qəhrəman oğlu Orxan Əkbərov Füzuli uğrunda gedən döyüşlərdə şəhidlik zirvəsinə yüksəlir. Oktyabrın 6-da ata-baba yurdu Biləsuvar şəhərində dəfn olunur. Rahat yat, Vətənin dağ cüssəli qəhrəman oğlu! Əlini həmişə qəlbinin köksündə tutdun. O qəlbdə Vətən torpaqlarının azadlığı üçün döyündü. Arzuların gerçəkləşib. Artıq iki ilə yaxındır ki, torpaqlarımızdan düşmən ayağı kəsilib. Şuşada üçrəngli Azərbaycan bayrağını dalğalandıran o qəhrəman oğullar sənin davamçılarındır. Sənin ruhundan güc alan igidlərdir.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin müvafiq sərəncamlarına əsasən, Azərbaycanın ərazi bütövlüyünün bərpa edilməsində xüsusi xidmətlərə və döyüş əməliyyatları zamanı qarşıya qoyulmuş tapşırıqların yerinə yetirilməsində göstərdiyi rəşadətə görə polkovnik-leytenant Orxan Əkbərov ölümündən sonra "Vətən Müharibəsi Qəhrəmanı" adına, "Vətən uğrunda", "Füzulinin azad olunmasına görə" medallarına layiq görülüb.

Şəhidin Sevil və Çingiz adlı iki övladı Vətənə əmanət qalıb. Qızı Sevil 10, oğlu Çingiz isə 9 yaşındadır.

Qəhrəmanın mənzilində şəxsi əşyalarından ibarət zəngin guşəsi yaradılıb. Bu guşədə qorunan hər bir əşya Orxanlı günlərin şirin xatirələrini yaşadır.

Sevil ana çox məğrur görünürdü. Qəhrəman oğlundan qürurla danışdı: "İki övladım hərbi peşəni seçdi. Orxan və Ənvər Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbin məzunlarıdırlar Orxan bu peşəni IV-V siniflərdə oxuyarkən seçmişdi. Çox tərbiyəli, qeyrətli oğul idi. Hər kəsin hörmətini qazanmışdı. Tamam fərqli bir övlad idi valideynlərinə. Vətənə, anaya çox bağlı idi. 20 ilə qədər ömrü hərbin çətin yollarında keçdi. Uşaq vaxtı da qeyri-adi uşaq idi. İstedadı, qabiliyyəti ilə yaşıdlarından fəqlənirdi. Tarix fənnini xüsusilə sevirdi. Rəssamlıq bacarığı da var idi. Onun boks müəllimi İmaməli Muradov Azərbaycanın Milli Qəhrəmanı Mübariz İbrahimovun da müəllimi olmuşdu. Arzulayıram ki, Orxanın övladları da özü kimi vətənpərvər, cəsarətli, mərd, dövləti, Vətəni sevən olsunlar. Onları Orxanın şəhid olduğu yerə aparacam. Qoy onların uşaq yaddaşında qalsın ki, necə qəhrəman ataları olub. İtkisiz döyüş olmur. Allah bütün şəhidlərimizin məkanını cənnət eləsin".



Vətən Müharibəsi Qəhrəmanı Orxan Əkbərovun qardaşı Hərbi Hava Qüvvələrinin zabiti mayor Ənvər Əkbərov dedi ki, qardaşımın xidmət yolu yalnız ön xətdə keçmişdi. "Kəşfiyyat bölməsi komandiri vəzifəsindən hərbi hissə komandiri vəzifəsinə kimi yüksəlmişdi. O həqiqətən də ordumuzun yetişdirdiyi mükəmməl kəşfiyyatçılardan biri idi. Vətən müharibəsi zamanı kənd Horadiz istiqamətində Orxan döyüşçüləri ilə birlikdə düşmənin xüsusi təyinatlı qüvvələri ilə qarşı-qarşıya gəlmişdi. Mühasirəyə alınmışdılar. Bu zaman Orxanın yüksək döyüş bacarığı sayəsində mühasirə yarılaraq uğurlu əməliyyat həyata keçirilmiş və düşməndən xeyli sayda silah-sursat hərbi qənimət olaraq götürülmüşdü. O, bir komandir olaraq döyüşə şəxsi heyətin önündə gedirdi. Eyni istiqamətdə Vətənimizin bütövlüyü uğrunda döyüşə qatılmışdıq. Mən təmas xəttindən aralıda fəaliyyət göstərirdim. Lakin Orxanın danışıqlarını çox eşidirdim, fəaliyyətini izləyirdim. Onun bir həftəlik döyüşünün şahidi oldum. Orxan döyüşü komanda mərkəzindən də idarə edə bilərdi. Lakin düşmən postlarına hücum edirdi... Orxan elə bir kəşfiyyatçı idi ki, düşməni özündən zəif hesab etmirdi. Onu bütün detallarına kimi incələyirdi: əlaqə yolları, əlavə dəstəyinə kimi. Hansısa tapşırığı icra edəcəkdisə, öncədən hazırlaşırdı. Artıq orada uğur əldə etməmək qeyri-mümkün idi. Lakin döyüşçüləri ilə birlikdə itkisiz müharibə, şəhidsiz Vətən olmur... Oktyabrın 3-ü mənə zəng gəldi. Dedilər ki, Orxan şəhid olub. Həmin günləri yada salmaq çox çətindir...

Hərbçi olmaq istəyi məndə Orxanı hərbi mundirdə görəndə yaranmışdı. Ona hərbi formanın yaraşmağı, onu qürurla daşımağı məndə qürur hissi yaratmışdı. Qardaşımın yolunu davam etdirməyi qərara almışdım. Orxan məndən iki kurs yuxarıda oxuyurdu. Fiziki cəhətdən çox sağlam, güclü, xarakterсə çox sadə idi. Xüsusi liderlik bacarığı vardı. Orxan və onun kimi oğullar heç zaman ölmür, xalq qəlbində onları daima yaşadır".

Orxan Əkbərovun həyat yoldaşı Nuranə Əkbərova on illik ailə həyatının xoş günlərindən, xatirələrdən söhbət açdı: "Orxanla həmişə qürur duymuşam. Bu gün şəhid xanımı adını məsuliyyətlə, şərəflə daşıyıram. Yadigarlarını adına layiq böyüdüb arzularına çatdırmalıyam... Axı planlarımız, arzularımız vardı. Oğlumuz Çingiz atasının yolunu davam etdirmək istəyir. Deyir ki, o da hərbçi olacaq. Atası kimi ailədə mehriban, qayğıkeşdir. Orxan övladlarına on dəqiqədə on günün sevincini yaşadırdı. Bu gün bizləri yaşadan onun xoş xatirələridir. Orxan bitməyən fəxarətimdir."

Çingizin, Sevilin gözlərində kədər, nisgil hakim kəsilib. Həsrət dolu gözlərə baxmaq çox çətindir...

"Mən atamla fəxr edirəm. O, Qarabağımız, torpaqlarımız uğrunda şəhid olub, həmişə mənim ürəyimdə yaşayacaq. Atam kimi mən də hərbçi olacam. Vətənimizin keşiyində dayanacam", - deyir Çingiz.

Sevil isə söyləyir ki, atası onu həkim görməyi arzulayırdı. "Mən də atamın arzusunu yerinə yetirmək üçün dərslərimi əla oxuyub böyüyəndə həkim olacam. Atam həmişə evə gələndə birinci bizim dərslərimizlə, qardaşımın idman hazırlığı ilə maraqlanardı. Biz dərslərimizdə əlaçı olub, atamızın adına layiq övlad olacağıq. O, Vətən, torpaq uğrunda şəhid oldu. Biz də Vətənimizi, torpağımızı, anamızı atamız kimi sevəcəyik".

Azərbaycan Ordusunun şəhid polkovnik-leytenantı Orxan Əkbərovun adının əbədiləşdirilməsi istiqamətində Biləsuvar rayonunda böyük işlər görülüb. Onun xatirəsinə vaxtilə yaşadığı evin önündə abidəsi ucaldılıb.

Biləsuvar şəhər Musiqi və İncəsənət məktəbi artıq Orxan Əkbərovun adını daşıyır. Eyni zamanda, Bakı şəhəri Nizami rayon Ərəstun Mahmudov adına 220 saylı məktəb-liseyin 3d sinfinə də qəhrəmanın adı verilib. Məktəbin müəllimi Gülnarə Quliyeva şəhid haqqında videoçarx hazırladıqlarını, sinif otağında adına lövhə vurduqlarını və gələcəkdə şəxsi əşyalarından ibarət guşənin yaradılmasının nəzərdə tutulduğunu dedi.

Neçə-neçə yaralı əsgərinə həyat bəxş edən, döyüşçülərinə canını sipər edən, elin, obanın qəhrəman oğlunun nurlu çöhrəsi yaddaşlardan silinməyəcək. Əbədiyyət günəşi tək daima parlayacaq. Axı şəhid xatirəsi Vətən qədər müqəddəsdir.

**Lalə HÜSEYNOVA**
**"Azərbaycan Ordusu"**

# Məktəbli qız məktubunda əsgərlərə yazmışdı ki...

27 sentyabr 2020-ci ildə ermənilərin təxribatı nəticəsində başlayan Vətən müharibəsinin getdiyi günlərdə demək olar ki, hamı düşmənlə mübarizə aparırdı, hamı vuruşurdu. Ən böyük müharibə isə mənəvi müharibəydi. Hər kəs əsgərə səslənir, qələbəyə ruhlandırırdı. Kimisi şeir yazır, kimisi mahnı bəstələyir, kimisi qalibiyyət rəsmi çəkirdi.

Məktəblilər də geridə durmur, könüllərindən qopanları qələmə alıb səngərə ünvanlayırdılar. İkinci Qarabağ müharibəsində yurdumuzun azadlığı uğrunda vuruşan zabit və əsgərlərimizin döyüş ruhunun daha da yüksəlməsi üçün vətənpərvərlik ovqatına köklənmiş məktublar yazırdılar. Şagirdlər böyük ürəklə yazdıqları məktublarında döyüşçülərimizi yeni-yeni zəfərlərə, qələbələrə həvəsləndirirdilər. Zabit və əsgərlərə döyüşlərdə uğurlar, erməni işğalçıları üzərində böyük qələbələr arzulayırdılar. Arzulayırdılar ki, hərbçilərimiz yaxın günlərdə erməni işğalına son qoyub xalqımıza qələbə və zəfər müjdəsi versinlər. Məktubları ilə qələbəmizi daha da yaxınlaşdırmaq istəyirdilər.

Vətən müharibəsində vuruşan, torpaqlarımızı azad etmək üçün cəbhələrdə böyük hünər və qəhrəmanlıq göstərən hərbçilərə məktub yazan şagirdlərdən biri də Bakı Avropa Liseyində oxuyan 5-ci sinif şagirdi Əsma Tağıyeva idi. Başqa məktəblilər kimi Əsmanın da balaca ürəyi həmin günlərdə Vətən torpaqlarının azadlığı uğrunda vuruşanların yanında döyünürdü. Bu günə qədər Əsma məktəbdə keçirilən tədbirlərdə ermənilərin azərbaycanlılara qarşı törətdiyi Xocalı soyqırımı və başqa qanlı faciələr haqqında çox eşitmişdi. İstəyirdi ki, Azərbaycan əsgəri düşməndən bu qanlı faciələrdə şəhid olanların qisasını alsın. Buna görə də cəbhədə ermənilərlə vuruşan döyüşçülərə məktub yazırdı. Ürəyindən keçirdi ki, hərbçilərimiz bu savaşda zəfər çalsın, erməniləri torpaqlarımızdan qovsun. Əsmanın atası İsmayıl da hərbçi idi. O da bir zabit kimi qanlı döyüşlər gedən günlərdə üzərinə düşən tapşırıqları bacarıqla, peşəkarlıqla yerinə yetirirdi. Əldə silah Vətən uğrunda vuruşurdu.

Əsma yurdumuzu ermənilərdən azad edən hərbçilərə müraciət edərək yazırdı: "Əziz əsgərlər, mən Bakı Avropa Liseyində oxuyuram. İndi məktəbimizdə hamı Vətən müharibəsindən danışır. Cəbhədən xəbər tutmaq üçün radioya qulaq asır, televiziyadakı verilişləri izləyirik. Hər gün cəbhədən xoş xəbərlər eşidirik. Eşitdiyimiz qələbə xəbərləri bizi çox sevindirir. O gün öyrəndik ki, Cəbrayıl rayonunun mərkəzini ermənilərdən azad etmisiniz. Bu qələbə münasibətilə sizi təbrik edirik. Əziz zabitlər və əsgərlər, hər dəfə sizin qələbələrinizi eşidəndə üzümüz gülür, ürəyimiz açılır. Bilirik ki, siz düşməndən qat-qat güclüsünüz, qüdrətlisiniz. İnanırıq ki, tez bir zamanda neçə illərdən bəri ermənilərin əsirliyində qalmış Qarabağımızı bu qaniçənlərdən azad edəcəksiniz. Biz hamımız sizinlə fəxr edirik. Mənim atam İsmayıl Tağıyev də zabitdir. O da hazırda Cəbrayıl rayonunun azadlığı uğrunda vuruşur, erməniləri torpaqlarımızdan qovur. Sinif yoldaşlarım da əsgərlərə məktub yazırlar. Biz də sizin üçün, Vətənimiz üçün dərslərimizi yaxşı oxuyuruq. Tənəffüsə çıxanda hamımız bir yerə yığışıb uca səslə: "Qarabağ Azərbaycandır!" - deyirik. Biz sizə inanırıq. İnanırıq ki, siz mütləq torpaqlarımızı ermənilərdən azad edəcəksiniz. Siz qalib əsgər kimi geriyə dönəndə, mən də sizi gül-çiçəklə qarşılayanların sırasında olacağam! Sizə qarşıdakı döyüşlərdə uğurlar və qələbələr arzulayıram. Qollarınıza qüvvət, əziz əsgərlər! Erməniləri qovub çıxardın torpaqlarımızdan. Biz sizdən yalnız və yalnız qələbə gözləyirik!"



Əsma məktubu yazıb bitirəndən sonra Azərbaycan bayrağını əlində möhkəm tutmuş Azərbaycan əsgərinin şəklini də çəkmişdi. Yanında isə Türkiyə Cümhuriyyətinin bayrağını da təsvir etməyi unutmamışdı. Azərbaycan əsgərini qalib görmək istəyən balaca Əsma yazdıqlarını bir də təkrar-təkrar oxuyub vərəqi zərfin içinə qoyduqdan sonra üzərinə bu sözləri yazmışdı: "Əsmadan əsgərlərə! Biz həmişə sizinləyik!.." Azərbaycan əsgərinə ürək sözlərini hopdurduğu məktubu sevinə-sevinə cəbhəyə yola salmışdı. Əmin olmuşdu ki, onun məktəbli dəftərinə yazdığı sözlər döyüşçülərimizi zəfərlərə, qələbələrə ruhlandıracaq. Azərbaycan əsgəri mütləq və mütləq Vətən müharibəsinin qalibi olacaq.

Məktəbli Əsmanın ürək çırpıntısı ilə yazdığı bu məktubu səfərbərlikdən döyüşlərə çağırılmış əsgər Sənan Rəşidli Murovdağ istiqamətində vuruşarkən almışdı. Beşinci sinif şagirdinin məktubunu bölükdəki əsgərlərə də oxumuşdu. Məktəbli qızın yazdıqları, doğrudan da, əsgərləri növbəti qələbələrə ruhlandırmışdı. Ordu sıralarından tərxis olunandan sonra əsgər Sənan Rəşidli Əsmanın oxuduğu Bakı Avropa Liseyinə gedərək onunla görüşmüşdü.

Bu görüş barədə oxuculara məlumat verməzdən əvvəl əsgər Sənan Rəşidlinin ömür və döyüş yolu haqqında qısa söhbət açmaq istəyirəm. Sənan 1995-ci ildə Oğuz rayonunun Tərkeş kəndində dünyaya göz açıb. Azərbaycan Dövlət İqtisad Universitetini bitirib. 2017-2018-ci illərdə "N" hərbi hissəsində xidmət edib. Erməni qəsbkarlarının təxribatı nəticəsində İkinci Qarabağ müharibəsi başlayanda Sənan Rəşidli də döyüşlərə gedib. Müharibənin ilk günlərindən o Murovdağ istiqamətində vuruşub. Vətən müharibəsindən doğmalarının yanına zəfərlə dönüb. Əsgər Sənan Rəşidli Vətən müharibəsində göstərdiyi hünər və rəşadətə görə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin müvafiq Sərəncamı ilə "Kəlbəcərin azad olunmasına görə" medalına layiq görülüb.

Müharibədən zəfərlə dönmüş əsgər üçün məktəbli Əsmanın yazdığı məktub çox yaddaqalan olub. Onunla söhbətimizə də elə məktəbli qızın məktubunun alındığı, oxunduğu anlardan başladıq. Sənan həmin günü xatırlayaraq dedi:

- Silah-sursat gətirmək üçün getmişdik. Qısa zamanda lazım olanları götürüb geri qayıtmaq istəyirdik. Bu vaxt təminata baxan hərbçilər dedilər ki, məktəblilər əsgərlərə məktub göndəriblər. Bu məktubları da döyüşçülərə payla. Qoy oxusunlar, çünki bu məktublar da bir silahdır. Məktəblilərin yazdıqları sözlər əsgərlərimizin döyüş ruhunu daha da artıracaq. Xeyli sayda məktubu gətirib əsgərlərə payladım. Şagirdlərdən birinin məktubunu da özüm oxudum. Doğrudan da, məktublar əsgərlərimizin döyüş ruhunu daha da artırdı.

Sözünə davam edən Sənan Rəşidli dedi ki, məktəbli qızın məktubunu qoruyub, müharibədən bir xatirə kimi saxladım. Vətən müharibəsindən bəhs edən hər söz, hər cümlə mənim üçün tarixdir. Hamımız bu tarixin parçalarını qorumalıyıq. Qorumalıyıq ki, gələcək nəsillər İkinci Qarabağ müharibəsində baş verən hər xırda hadisəni belə bilsin, onu dərindən öyrənsinlər. Zabit və əsgərlərimizin qəhrəmanlığından nümunə götürsünlər. Müharibədən qayıtdıqdan bir müddət sonra ürəyimdən keçirdi ki, Bakı şəhərinə gedəndə Bakı Avropa Liseyini axtarıb tapım, məktubu mənə gəlib çatmış 5-ci sinif şagirdi Əsma ilə görüşüm. Nəhayət, bu yaxınlarda Bakıya gəlmişdim. Bakı Avropa Liseyinin direktoru ilə danışdım, Əsma ilə görüşmək istədiyimi bildirdim. Məktəbin rəhbərliyi təşəbbüsümü hörmətlə qarşıladı. Görüş üçün ertəsi günə vaxt təyin edildi.

Təyin olunan vaxt Bakı Avropa Liseyinə getdim. Məktəbli qızın məktubunu da özümlə götürmüşdüm. Çox həyəcanlı idim. Murovdağın ətəklərində Əsmanın yazdıqlarını oxuduğum anlar yadıma düşdü. O vaxtlar heç ağlıma da gəlməzdi ki, məktubunu oxuduğum qızcığazın təhsil aldığı məktəbə gedəcəyəm, onunla görüşəcəyəm. Yəqin ki, heç Əsma da döyüşçülərə məktub göndərərkən ağlına da gəlməzdi ki, od-alovun içində məktubunu oxuyan əsgər döyüşlərdən sağ-salamat qayıdıb onunla görüşmək üçün təhsil aldığı məktəbə gələcək.

Liseyin direktoru ilə Əsmanın sinfinə getdik. Bu anlarda həyəcanım bir az da artdı. Elə həyəcanlı-həyəcanlı da sinifə girdim. Əsma ilə görüşüb tanış oldum. Çox gülümsər bir qız idi. Məktubu yazdığı vaxtdan bəri Əsma bir yaş da böyümüşdü. İndi məktəbli qız 6-cı sinifdə oxuyurdu. Əsmanın məktubunu hansı şəraitdə aldığımı, oxuduğumu hər kəsə danışdım. Sonra yazdığı məktubu məktəbli qızın özünə verdim ki, oxusun. Əsma əsgərlərə yazdıqlarını sinif yoldaşları üçün də oxudu. Bu anlarda məktəbli qızın üzündə təbəssüm, gözlərində sevinc vardı.

Bir az keçmiş Əsmanın atası İsmayıl Tağıyev də sinfə gəldi. Öyrəndim ki, zabit İsmayıl Tağıyev döyüşlərdə göstərdiyi igidliyə, cəsarətə görə "Cəbrayılın azad olunmasına görə" və "Hərbi xidmətlərə görə" medallarına layiq görülüb. Məktəbdə keçirilən bu görüş mənim üçün yaddaqalan oldu. Sevincim yerə-göyə sığmırdı. Hiss edirdim ki, Əsma da bu görüşə çox sevinir. Görüş zamanı Azərbaycan zabitinin, Azərbaycan əsgərinin döyüşlərdə göstərdiyi igidlikdən, qəhrəmanlıqdan ətraflı söz açdım. Bakı Avropa Liseyində müəllimlərlə, şagirdlərlə olan bu görüş uzun müddət yaddaşımda yaşayacaq.

Keçmiş döyüşçünün döyüşlər zamanı məktəbli qızın məktubunu alması, həm də xeyli müddətdən sonra onunla görüşməsi Sənanın yaddaşında dərin iz buraxmışdı. Yəqin ki, bu görüşlər, bu hadisələr, özünün də dediyi kimi, heç vaxt onun yaddaşından silinməyəcək. Vətən nə vaxt əmr etsə, Sənan Rəşidli onun müdafiəsinə həmişə hazır olacaq.

**Vahid MƏHƏRRƏMOV**
**"Azərbaycan Ordusu"**

# Xəbərlər: hadisələr, faktlar

## AFR ordusunun gücləndirilməsi üçün 100 milyard avroluq fond yaradılacaq



Almaniya Bundesratı (Federal torpaqlar palatası) Silahlı Qüvvələrin gücləndirilməsi üçün 100 milyard avro həcmində xüsusi fond yaratmaq məqsədilə konstitusiyaya düzəlişlərin edilməsi barədə razılığa gəlib.

Bu barədə Almaniyanın DPA agentliyi xəbər verib. Müvafiq qərar cümə günü nümayəndələr tərəfindən qəbul olunub.

Hökumət fondun təşkili üçün böyük məbləğdə kreditlərin alınmasını qadağan edən qaydalardan yan keçmək üçün konstitusiyaya dəyişiklik etməli idi. Bu məsələ hökumətlə razılaşdırılmış və Bundestaq tərəfindən dəstəklənmişdi. Federal torpaqlar palatasında keçirilən səsvermə isə formal xarakter daşıyırdı.

Almaniyanın hakimiyyət orqanları həmin fondun vəsaiti hesabına yeni silahlar almağı və ordunun maddi-texniki bazasını yaxşılaşdırılmağı planlaşdırır. Həmçinin Hərbi Hava Qüvvələrinin gücləndirilməsinə, o cümlədən yeni "Eurofighter" və F-35 qırıcı təyyarələrinin alınmasına təxminən 40 milyard avro, Hərbi Dəniz Qüvvələrinin ehtiyaclarına isə 19,3 milyard avro ayrılacaq.

## Cənubi Kaliforniyada hərbi təyyarə qəzaya uğrayıb



ABŞ-ın Kaliforniya ştatının cənubunda Osprey tipli hərbi təyyarənin qəzaya uğraması nəticəsində göyərtədə olan 5 dəniz piyadası həlak olub.

Dəniz Piyadaları Korpusunun yaydığı məlumata görə, "3-cü Dəniz Təyyarələri Qanadı"na məxsus MV-22 Osprey Kaliforniya ştatının Qlamis yaxınlığındakı səhra ərazisinə qəzaya uğrayıb.

MV-22B Osprey qoşunları və təchizatları daşımaq üçün istifadə edilən təyyarədir. O, vertolyot kimi qalxıb enə bilir, eyni zamanda təyyarə kimi də uça bilir.

Qeyd olunub ki, indiyədək Osprey tipli hərbi təyyarələrin törətdiyi qəzalar nəticəsində 51 nəfər həyatını itirib.

## İsveç və Finlandiya müdafiə sahəsində əməkdaşlığı genişləndirir



İsveç və Finlandiya müdafiə sahəsində əməkdaşlığı genişləndirir.

Skandinaviya ölkələri nazirlərinin Reykyavikdə keçirilən görüşü çərçivəsində iyunun 8-də İsveçin müdafiə naziri Peter Hultqvist və onun finlandiyalı həmkarı Antti Kaykkönen müvafiq sənədi imzalayıblar. Yeni saziş, iki ölkənin birgə fəaliyyət imkanlarının gücləndirilməsini nəzərdə tutmaqla yanaşı, İsveç və Finlandiyanın lazım gəldikdə bir-birinə dəstək verilməsini də nəzərdə tutur.

Sənəd iki şimali Avropa ölkəsinə sülh, böhran və müharibə dövründə hərbi əməliyyatlar və əməkdaşlıq üçün də daha geniş imkanlar verir.

"İsveç və Finlandiya arasında müdafiə sahəsində əməkdaşlığa gəlincə, onun məqsədi bir-birimizin ərazisində, o cümlədən birgə əməliyyatlar çərçivəsində hərəkətlər üçün daha yaxşı şərait yaratmaqdır. Buna görə də hərbi dəstək vermək və almaq bacarığı çox vacibdir. Müqavilə bizim burada və indi, eləcə də NATO-ya üzv olduqdan sonra birgə fəaliyyət göstərmək qabiliyyətimizi təkmilləşdirəcək", - deyə İsveçin müdafiə naziri Peter Hultqvist bildirib.

**AZƏRTAC-ın materialları əsasında**

# "Təhsil millətin gələcəyidir"

Azərbaycanda hər bir sahədə olduğu kimi, təhsil sektorunda da müşahidə olunan inkişaf tendensiyası xüsusi diqqət cəlb edir. Bu inkişafın əsası isə xalqımızın ümummilli lideri Heydər Əliyev tərəfindən qoyulub. "Təhsil millətin gələcəyidir" sözlərini deyən Ulu Öndər bu sahəyə hər zaman diqqət və qayğı ilə yanaşıb. Ümummilli Liderin 30 mart 1998-ci il tarixli müvafiq Sərəncamı ilə ölkəmizdə təhsil sahəsində beynəlxalq standartlara uyğun islahatların keçirilməsini müəyyənləşdirən proqramın hazırlanması məqsədi ilə Dövlət Komissiyası yaradıldı. Bundan əlavə, Ümummilli Liderin "Azərbaycan Respublikasında təhsil sisteminin təkmilləşdirilməsi haqqında" 13 iyun 2000-ci il tarixli fərmanı müstəqil Azərbaycanda ali təhsilin inkişafı və təşkilində keyfiyyətcə yeni bir mərhələnin başlanğıcı oldu. Heydər Əliyev təhsili millətin gələcəyi olaraq görürdüsə, onun siyasi kursunun layiqli davamçısı Ali Baş Komandan İlham Əliyev Azərbaycanın gələcəyini müəyyən edən prioritet sahə kimi yüksək dəyər verərək diqqətdə saxlayır. Bu gün dövlət büdcəsindən təhsil sahəsinə ayrılan maliyyə vəsaiti ölkəmizdə elm və təhsilin sürətli inkişafına köməklik göstərən əsas amildir.

Son illər aparılan məqsədyönlü islahatlar nəticəsində müasir düşüncə tərzinə malik, bilikli, dövlətçiliyə sadiq vətənpərvər gənclər yetişir. Gənc nəslin milli vətənpərvərlik ruhunda tərbiyəsi əsas vəzifələrdən hesab edilir. Bu məqsədlə təhsil müəssisələrinin bütün pillələrində gələcəyin memarlarına vətənpərvərlik ruhu aşılanır, onlar Vətənə, dövlətə məhəbbət hissi ilə tərbiyə olunur. Gənclərdə bu hisslərlə yanaşı, hərb peşəsinə məhəbbəti təbliğ edən yarım əsrlik tarixə malik Cəmşid Naxçıvanski adına Hərbi Liseyin müstəsna rolu vardır.

Hərbi lisey xalqımızın ümummilli lideri Heydər Əliyevin təşəbbüsü və rəhbərliyi ilə 1971-ci ildə Bakı şəhərindəki 2 saylı 8 illik internat məktəbinin bazasında yaradılıb. Təsis edilən zaman ona "Respublika ixtisaslaşdırılmış internat məktəbi" adı verilmiş və həmin ildən etibarən məktəb general Cəmşid Naxçıvanski adını daşımışdır. 24 noyabr 1997-ci il tarixində Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ilə məktəbin adı dəyişdirilərək Cəmşid Naxçıvanski adına Hərbi Lisey adlandırılıb. 2003-cü il aprelin 19-da Ulu Öndər liseyi ziyarət edərək "Döyüş bayrağı"nı təqdim edib, şəxsi heyətlə görüşüb, onlara şərəfli və məsuliyyətli xidmətlərində uğurlar arzulayıb. Həmin gündən etibarən 19 aprel "Cəmşid Naxçıvanski adına Hərbi Lisey" Günü kimi qeyd edilir.

Cəmşid Naxçıvanski adına Hərbi Liseyin ölkəmizdə həyata keçirilən ordu quruculuğu prosesində və Silahlı Qüvvələr üçün milli zabit kadrların hazırlanmasında müstəsna rolu vardır. Hərbi liseyin məzunları Azərbaycan Respublikasının müstəqilliyi, ərazi bütövlüyünün təmin olunması uğrunda gedən döyüş əməliyyatlarında iştirak edərək, qəhrəmanlıq nümayiş etdirib, "Azərbaycanın Milli Qəhrəmanı", "Vətən Müharibəsi Qəhrəmanı" adına layiq görülüb, müxtəlif orden və medallarla təltif olunublar.

Hərbi Liseydə tədris prosesi Azərbaycan Respublikası müdafiə nazirinin 23 iyul 2016-cı il tarixli müvafiq qərarı ilə təsdiq edilmiş "Xüsusi təyinatlı tam orta təhsil müəssisələrinin təhsil fəaliyyətinin təşkili haqqında Təlimat" və "Cəmşid Naxçıvanski adına Hərbi Liseyin Nizamnaməsi"nin tələblərinə uyğun olaraq təşkil olunur və keçirilir. Cəmşid Naxçıvanski adına Hərbi Lisey texniki riyaziyyat-iqtisadiyyat təmayüllü liseydir və burada Azərbaycan dili və ədəbiyyatı, riyaziyyat, informatika, fizika, kimya, Azərbaycan tarixi, ümumi tarix, coğrafiya, ingilis dili, rus dili, fiziki tərbiyə və çağırışaqədərki hazırlıq fənləri respublikanın digər ümumtəhsil məktəblərində olduğu kimi, tədris proqramına uyğun olaraq keçirilir. Hal-hazırda Hərbi liseydə müəllimlərin bir neçəsi elmi dərəcəli müəllimlərdir. Gənc müəllimlərin pedaqoji ustalığının artırılması məqsədilə mütəmadi olaraq metodiki müşavirələr keçirilir və onlar ixtisasartırma və təkmilləşdirmə kurslarına cəlb edilirlər. 2018-ci il mayın 30-da respublikanın bütün ümumtəhsil məktəblərinin müəllimləri ilə yanaşı, Hərbi liseyin müəllim heyəti də Dövlət İmtahan Mərkəzi tərəfindən keçirilmiş "Müəllimlərin diaqnostik qiymətləndirməsi"nə cəlb edilmişdir.



Dərslərin daha da keyfiyyətli keçirilməsi məqsədilə tədris binasında ingilis dili fənni üzrə linqafon sinifləri, fizika və kimya laboratoriyaları, kursantların sağlamlığının möhkəmləndirilməsi, orqanizmin dözümlülüyünün artırılması üçün voleybol və futbol meydançaları, trenajor zalı və hovuz fəaliyyət göstərir. "Azərbaycan Ordusunda xarici dillərin öyrənilməsi sisteminin optimallaşdırılması haqqında" müdafiə nazirinin 5 sentyabr 2018-ci il tarixli müvafiq əmrinə əsasən, Azərbaycan Ordusunda xarici dil bilmə səviyyəsinin yüksəldilməsi məqsədilə ingilis dili fənnini zəif oxuyan kursantlarda rabitəli nitqin inkişaf etdirilməsi təkmilləşdirilir. Həmçinin yazı qabiliyyətinin yüksəldilməsi və dil qaydalarının mənimsənilməsi, eləcə də buraxılış imtahanına hazırlıq məqsədilə Azərbaycan dili fənni üzrə dərsdənkənar məşğələlər təşkil olunur. Kursantlarda fiziki keyfiyyətlərin inkişaf etdirilməsi üçün fiziki tərbiyə fənni üzrə üzgüçülük, atletika, basketbol, güləş dərnəkləri keçirilir. Bundan əlavə, liseydə Azərbaycan dili, riyaziyyat, fizika, kimya və ingilis dili fənni üzrə liseydaxili olimpiada, inşa müsabiqəsi, mini futbol, voleybol, şahmat, basketbol, yüngül atletika üzrə lisey birinciliyi, Milli Qəhrəman Mübariz İbrahimovun xatirəsinə həsr olunmuş hərbiləşdirilmiş idman tədbirləri keçirilir. Yüksək nəticə əldə edən kursantlar mükafatlandırılır və növbəti mərhələlərdə iştirak etmək şansı qazanır.

Ötən il Xaçmaz rayonunda "Zəfər Günü"nə həsr olunmuş "Vətənin müdafiəsinə hazıram" devizi altında respublika çempionatı üzrə poliatlon çoxnövçülük yarış keçirildi. Bu yarışda Hərbi liseyin kursantlardan ibarət komandası rəqib komandaları geridə qoyaraq respublika çempionu oldular. Bu isə liseydə fiziki hazırlığın yüksək səviyyədə olmasının əyani göstəricisidir.

Kursant heyəti ilə müstəqil hazırlıq saatlarında ayda bir dəfədən az olmayaraq taqım və bölük komandirlərinin iştirakı ilə "Gilavar" atış trenajorunda məşqlər keçirilir. 1-ci kursda təhsil alan kursantlara tədris ilinin sonunda Bakı qarnizonunun hərbi hissələrində çöl təlimi keçirilir.

Bu yaxınlarda Dövlət İmtahan Mərkəzi tərəfindən Cəmşid Naxçıvanski adına Hərbi Liseyin 2-ci kurs (11-ci sinif) kursantları ilə keçirilən buraxılış imtahanında kursant Xəyyam Məmmədov digər yoldaşlarından fərqlənərək 300 baldan 284,6 bal toplayaraq ən yüksək nəticə göstərmişdir. Qeyd edək ki, liseyə qəbul zamanı Xəyyam 241 bal toplayıb. Bu isə liseydə dərslərin yüksək səviyyədə keçirilməsinin və müəllimlərin peşəkar olmasının göstəricisidir. Kursant Məmmədovla söhbətimiz zamanı Ulu Öndərin əsasını qoyduğu Cəmşid Naxçıvanski adına Hərbi Liseydə təhsil almağın qürurunu yaşadığını bildirdi. "Qəbul olduğumuz gündən etibarən müəllim və komandir heyətinin diqqət və qayğısı ilə əhatələnmişik. Ali Baş Komandanın göstərişi ilə bizim lisey əsaslı şəkildə təmir olundu və yenidənqurma işləri aparıldı. Bu isə biliyimizin hərtərəfli artırılmasına müsbət təsir göstərdi. Müəllimlərimizin təcrübəsindən bəhrələnərək Dövlət İmtahan Mərkəzi tərəfindən keçirilən imtahanda yüksək nəticə göstərdim. Bunun üçün də müəllim və komandir heyətinə öz təşəkkürümü bildirirəm. Ümid edirəm ki, mən və kursant yoldaşlarım gələcəkdə Azərbaycan Ordusunda yüksək rütbəli zabitlər olacaq və Vətənimizin müdafiəsini təmin edəcəyik".

Kursant Rəvan Babayev də imtahanlarda yüksək nəticə göstərib. O, 2020-ci ildə qəbul imtahanında 217 bal toplayaraq liseyə daxil olub. "Liseydə yüksək səviyyədə təhsil almağımız üçün hər bir şərait yaradılıb. Burada müasir standartlara cavab verən siniflər, fizika-kimya labaratoriyaları sayəsində nəzəri və praktiki biliklərimizi artırırıq. Tədris prosesində müəllimlərin köməkliyi ilə lazımi məlumatlar əldə edirik. Cəmşid Naxçıvanski adına Hərbi Liseyə qəbul balımın 217 olmasına baxmayaraq müəllimlərin səyi nəticəsində 2022-ci ildə Dövlət İmtahan Mərkəzi tərəfindən keçirilən buraxılış imtahanında 250 bal topladım. Bu isə təhsil ocağında tədrisin yüksək səviyyədə olduğunun bariz nümunəsidir. Ümid edirəm ki, Heydər Əliyev adına Hərbi İnstitutu da müvəffəqiyyətlə bitirəcək, rəşadətli Azərbaycan Ordusu sıralarında xidmət edəcəyəm".

**Baş leytenant**
**Orxan HÜSEYNLİ**
**"Azərbaycan Ordusu"**

## Hərbi vətənpərvərlik mahnıları və marşları

### HEYDƏR BAYRAĞI ALTINDA

*Səttar ZƏRDABLI*

Bəxtimin yelkəni toxunsa daşa,
Xalqımı çəksələr yenə savaşa,
Silsilə dağlarım verər baş-başa,
İgidlər qəlbində alışar şamtək.

Heydər bayrağının altından keçək,
Azadlıq yolunda gəlin and içək!
Heydər bayrağının altından keçək,
Vətənin uğrunda gəlin birləşək!

Vüqarla dayanmış ağbirçək ana,
Şəhid körpəsini basıb bağrına,
Gərək son qoyula bu nahaq qana,
Qalan ümidimi kəsməsin fələk.

Elimə bağlıdır bu məhəbbətim,
Tarixdən silinməz gücüm, qüdrətim,
Ey mənim şöhrətim - ulu millətim,
Haqqın bir yolu var yeganə, gerçək!

### AZƏRBAYCAN ƏSGƏRİ

*Bəxtiyar VAHABZADƏ*

Azərbaycan torpağında boy atmışıq biz,
Tarixlərin o tayından gəlir səsimiz.
Bir düşmənə baş əymədi oğuz nəslimiz,
Babaların qanı axır damarımızdan
Azərbaycan əsgəriyik, bu ada qurban!
Bu ada qurban, hey! Bu ada qurban!
Azərbaycan əsgəriyik, bu ada qurban!

Başımızın üstündədir üçrəngli bayraq,
Əvvəlimiz, axırımız bu ana torpaq.
Bu torpağın keşiyində əzmlə durmaq,
Bu millətin oğlu üçün şöhrət, şərəf, şan.
Azərbaycan əsgəriyik, bu ada qurban!
Bu ada qurban, hey! Bu ada qurban!
Azərbaycan əsgəriyik, bu ada qurban!

Qara torpaq Vətən oldu hünərimizdən,
Hünərimiz xəbər versin zəfərimizdən.
Şəhid ruhu baxır bizə göylərimizdən,
Sərhəd çəkək sinəmizdən yurda hər zaman.
Azərbaycan əsgəriyik, bu ada qurban!
Bu ada qurban, hey! Bu ada qurban!
Azərbaycan əsgəriyik, bu ada qurban!

### CAN, AZƏRBAYCAN

*Əhməd CAVAD*

Torpağına can demişəm,
Suyuna mərcan, mərcan demişəm,
Canımı qurban, qurban vermişəm,
Ay gözüm, canım, Azərbaycanım,
Can, can, can, Azərbaycan!

Bulaqların şərbət dadır,
Arzularımız hələ daldadır.
Təbrizin gözü, gözü yoldadır,
Ay gözüm, canım, Azərbaycanım!
Can, can, can, Azərbaycan!

Qarabağında şux bülbülüm var,
Baldan da dadlı şirin dilin var,
Türküstan kimi böyük elin var,
Ay gözüm, canım, Azərbaycanım!
Can, can, can, Azərbaycan!

Müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu Rzayev Vüsal Azər oğluna məxsus AD № 0017094 nömrəli şəxsi vəsiqə itdiyi üçün etibarsız sayılır.

**Baş redaktorun müavini**
kapitan
Məhəmməd NƏSİRLİ

**Telefonlar**
Baş redaktor: (012) 510-71-97 (faks);
Baş redaktorun müavini: (012) 510-64-27;
Məsul katib: (012) 510-71-98;
Məktublar şöbəsi: (012) 510-64-28.

**Ünvanımız**
Bakı şəhəri, akademik Şəfaət Mehdiyev küçəsi 144, "Qızıl Şərq" hərbi şəhərciyi

**Növbətçi**
baş leytenant
Orxan HÜSEYNLİ

**Qəzetin hesabı**
Nərimanov Rayon Xəzinədarlığı
Kod: 200189
VÖEN: 1500428611

Qəzet həftədə iki dəfə (III-VI günlər) nəşr olunur. "Azərbaycan Ordusu" qəzeti kompüter mərkəzində səhifələnərək "Hərbi Nəşriyyat"ın mətbəəsində hazır diapozitivlərdən çap olunur. Əlyazmalara rəy verilmir, təqdim edilən yazılar müəllifə qaytarılmır.
Qəzeti mod.gov.az saytından oxuya bilərsiniz.

Lisenziya № 361
Sifariş № 689
Nüsxə 4673